


# AŞURAYA İSLAMİ BAXIŞ

**Rəhman, Rəhim Allahın adı ilə!**
**Həmd olsun Allaha – aləmlərin Rəbbinə!**
**Salam olsun Onun seçdiyi bəndələrinə!**

Aşura müsəlman insanın şəxsiyyətində bərabərlik yaratmaq üçün bir məktəbdir. Çünki Aşura müsəlman üçün Aşura ilə bağlı onun şəxsiyyətində mövcud olan bütün böyük dəyərlərin və anlayışların surətini çəkir. Allahla əlaqə, bir-birimizlə və düşmənlərlə peyğəmbərsayağı rəftar, hökumət məsələsi, yaxud ümumi dini məfhumlarla əlaqədar islami-siyasi anlayışların möhkəmlənməsi kimi uca məfhumlar onların şəxsiyyətində aydınlaşmışdır. O məfhumlar ki, camaatın zehnində pas atmışdı və özünün mövcud həqiqətləri haqqında aydın təsəvvür yarada bilmirdi. Buna görə də bu məfhum və anlayışlar zaman-zaman müxtəlif şəkillərdə təkrar olunmalıdır. Haqq və batil arasındakı daimi döyüşə əsasən, tarix həmişə və hər zaman özünü təzələyir. Aşuranın əziz tutulması, nümunələr üçün bir məsuliyyət, hərəkət üçün bir qiyam yeri və ruhlanmaq üçün yardımçı bir amildir. Buna görə də imamlar istəyirdilər ki, Aşuranın xatırlanması davamlı olsun, həssas və müqəddəratı həll edən məsələlərdə öz meyvələrini insanların istifadəsinə verə bilən bərəkətli Peyğəmbər ağacı olsun.

Camaat Aşuraya çoxlu adət-ənənələr daxil etdi və zaman keçdikcə Aşuranın bəzi ünsürlərində durğunluq yaratdı. Belə ki, bəzi şəraitlərdə əzadarlıq mərasimlərinin keçirilməsi hərəkətsiz bir əmələ çevrilmişdir. Artıq belə məclislərin zülm və sitəm qarşısında vicdanları hərəkətə gətirməyə gücü yoxdur. Bəzi hallarda isə belə məclislər insanı tərbiyə edən bir amilə yox, insana əzab verən bir işə çevrilir. Bu şəraitdə bəziləri Aşuradan məzhəbi təəssübkeşlikləri zahirə çıxarmaq üçün bir vasitə və özünün tarixi düşmənçiliyini büruzə vermək üçün bir məcra kimi istifadə edirlər. Bunlar Aşura və onun sahibinin müqəddəsliyi ilə ziddiyyət təşkil edir və islami xüsusiyyətlərlə də heç bir uyğunluğu yoxdur.

Buna görə də, dini rəhbər Əllamə Seyid Mühəmmədhüseyn Fəzlullah 50 ildən artıqdır ki, məhəbbət və şəfqət yönü ilə yanaşı Aşuranın fikri yönünü də möhkəmləndirməyə çalışır və israrla diqqəti onun ümumi islami sərlövhəsinə çəkir. Seyid Mühəmmədhüseyn Fəzlullah bütün islami məzhəblərdən tələb edir ki, Aşuranın dərs və ibrətlərindən özlərinin bu günü və gələcəkləri üçün istifadə etsinlər.

Bütün müsəlmanlar hərəkət və mövqe tutma meydanında iman və islami vəhdətin rəmzi olaraq Həzrət Hüseynin ətrafında toplaşmalıdırlar. Seyid Mühəmmədhüseyn Fəzlullah bu böyük münasibəti məhdudlaşdıran və təhlükəyə məruz qoyan bütün yolları inkar edir və Aşuranın müqəddəsliyi ilə təzad təşkil edən, islami hökmlərə uyğun gəlməyən və Əhli-Beytin xəttində büllurlaşan İslamın nurani simasını camaatın gözündən salan bütün metodları rədd edir.

Dini rəhbər Əllamə Seyid Mühəmmədhüseyn Fəzlullah israrla qeyd edir ki, Aşura əzadarlığının metodları dəyişilməli və film, sərgi və s. kimi vasitələrdən istifadə edilməlidir ki, ta Aşura üçün xalqın

böyük əksəriyyəti arasında daha çox təsir qoymaqla yol tapma fürsəti yaransın. Yeni metodlar Aşuranın islami və insani dərinliyi haqqında camaatda doğru təsəvvür yaratmağı bacarmalıdır.

Seyid Fəzlullahın Aşura haqqındakı bəzi fikir və düşüncələri onun faydalı övladı Seyid Cəfər Fəzlullah tərəfindən «Aşura xəbəri» və «Aşura söhbəti» adlı kitablarında toplanmışdır. Aşura mövzusuna aid olan bəzi digər fikirlər, səbəblər, xüsusiyyətlər, canlandırma vasitələri, şəfqət və düşüncənin Aşuranın canlandırılmasındakı rolu kimi başlıqlar altında bu kitabda yer almışdır. Kitab həcm baxımından kiçik olmasına baxmayaraq, hədəf və məqsəd baxımından çox böyükdür. Allahdan istəyirik ki, bu xidməti faydalı qərar versin. Həqiqətən, O, Eşidəndir, duaları qəbul edəndir.

**Seyid Mühəmmədhüseyn Fəzlullahın ofisi**

## NƏ ÜÇÜN KEÇMİŞİ ANIRIQ?

Bəziləri soruşur ki, hansı səbəbə görə Aşura hadisəsindən on üç əsrdən çox keçməsinə baxmayaraq yenə də hər il bu hadisə dərin hüznlə qeyd olunaraq yad edilir? Çünki tarix özünəməxsus şərait və zamanlarda baş vermiş acı və qəmli hadisələrlə doludur. İki müxtəlif cərəyan bir-birilə döyüşdüyü, yaxud güclülər məzlumlar əleyhinə müqavimət göstərdiyi zaman tarixi bəlaların mövcud olması təbii bir hadisə olaraq meydana çıxır ki, bunları olduğu kimi etmək lazımdır.

Bəziləri isə Aşuranın məzhəblər arasında ixtilafın baş qaldırmasına səbəb olduğunu qeyd edirlər. Xüsusən də Aşuranın canlandırılmasının tarixi və ənənəvi üsulu onu əhli-sünnə qarşısında şiələrə məxsus bir hadisəyə çevirmişdir. Belə ki, əhli-sünnə əməvilərə böyük hörmət bəslədiyindən onlar haqqında edilən mənfi söhbətlərin – Aşura hadisəsinin canlandırılmasının mahiyyəti bunu tələb edir – İslam ümmətinin vəhdət və sabitliyinə mənfi təsir göstərməsi mümkündür.

Bu iki nəzəriyyəyə gəlincə, bu fikirlərin mülahizə olunması zəruridir.

## BİRİNCİ: TARİXİN CANLANDIRILMASI BİR MƏDƏNİYYƏT İŞİDİR

Münasibətlərin canlandırılması vasitəsilə tarixin yenidən oxunması məsələsi insanlığa xas və mədəni bir işdir. Bütün millətlər və bəşər cəmiyyəti müxtəlif mədəniyyətə malik olmalarına baxmayaraq, ona (yəni tarixin canlandırılmasına) xüsusi diqqət göstərirlər. Görürük ki, bugünkü dünyada millətlər ənənəvi olaraq yüz illər bundan əvvəl baş vermiş müharibələrin, milli qələbələrinin ildönümlərini hər il bir yerə toplaşaraq mərasim kimi qeyd edirlər. İstiqlal gününün mərasim kimi keçirilməsinin əsas səbəbi bu mənliyin öz millətlərinin insanlıq əqidələrində kök salmasını təmin etməkdir.

Digər tərəfdən diqqət etmək lazımdır ki, bizim bu günümüz dünənki tariximizdən heç də ayrı deyildir. Özünü təsdiq etməyə çalışan və öz addımlarını dəyişikliyə, inkişafa doğru möhkəm atan insan hiss edir ki, onun keçmiş tarixində elə aydın nöqtələr mövcuddur ki, çətinliyə düçar olduğu zaman ondan bəhrələnə bilər. O, tarixdən öz yaşam tərzi ilə tam uyğunluğu olan və tarixin xüsusi bir dövrünə aid olmayan dərslər tapır. Yaxud insan elə bir stimula ehtiyac duyur ki, onun əsil ünsürləri hal-hazırkı zamanda mövcud deyil və o, bütün bunları öz tarixi köklərindən əldə etməyə çalışmalıdır.

Bütün bunlar göstərir ki, tarixi yenidən canlandırmaq həyati bir məsələdir və insan həyatı üçün bir çox üstünlükləri vardır. Quran-kərimdə də bu məsələyə işarə edilərək buyurulur: **«Həqiqətən onların (yəni peyğəmbərlərin) hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır»[1].** Bu ayədən belə nəticə çıxarmaq olar ki, İslam nöqteyi-nəzərindən tarixin dəyəri, onun ibrətamiz olması ilə ölçülür ki, hadisələrin qapısını insanların fikir və düşüncələrinin üzünə açır. Məhz həmin məsələ bizim tarixi şəxsiyyətlərlə – xüsusən də İslama rəhbərlik edənlərlə – sıx əlaqə saxlamağa sövq edir. Çünki onların hərəkət və davranışları yalnız yaşadıqları zamanla məhdudlaşmır, əksinə onların fikirlərində, mənəviyyat və əməllərində billurlaşmış missiyaçı bir addımdır. Bu baxımdan tarixi münasibətlərin canlandırılması, onlarda mövcud olan ibrətlər, moizələr və dərslərin gələcəyimizə təsiredici keyfiyyətə malik olması müasir mədəniyyətə nəinki zidd deyil, əksinə bəşər mədəniyyətinin dərin köklərinin və tarixin əməli surətdə yaradılması deməkdir. Öz tarixini xatırlamayan bir millət, gələcək həyatında ləyaqətli rol oynaya bilməz.

## İKİNCİ: AŞURA HADİSƏSİ MƏZHƏBİ HADİSƏ DEYİLDİR

1 «Yusif»; 111

İslami və Qurani qaydaları nəzərdən keçirdikdə belə məlum olur ki, keçmiş bütün yaxşılıq və çirkinlikləri ilə yalnız o zamanda yaşayan və bu hadisələri törədənlərə aid edilir. Allah-Taala Quran-kərimdə buyurur: **«Onlar bir ümmət idilər ki, keçib getdilər, onların qazandıqları özlərinə, sizinki isə özünüzə aiddir. Onların əməlləri haqda sizdən sorğu-sual olunmaz»[2].**

Deyilənlərə əsasən əgər inqilab nöqteyi-nəzərindən diqqət etsək, tarixin əzəmətli keçmişinin bizimlə heç bir əlaqəsi olmadığının, yalnız öz yarandığı dövrünü əhatə etməsinin şahidi olarıq. Elə isə tarixin mənfi mövzularının məsuliyyətini müasir cəmiyyətin simasında axtarmaq lazım deyildir. Hərçənd keçmişdə bir-birilə döyüşmüş dəstələrlə tarixi bağlılığı olan bir qrup müasir fərdlərin mövcud olması da mümkündür.

Elə isə bugünkü şiələr keçmiş sünni və şiələrin arasında baş vermiş ixtilaflardan hasil olan mənfi şəraitin qarşısında heç bir məsuliyyət daşımır. Eləcə də müasir sünnilərin tarix boyu əhli-sünnə tərəfindən şiələrin əleyhinə yürüdülən mənfi müqavimətlər qarşısında heç bir məsuliyyəti yoxdur. Əksinə bu günün şiə və əhli-sünnəsi bu dövrdə yaşayır və müasir mükəlləfiyyətlərlə vəzifələnmişlər. Əlbəttə, İslamın və onun hərəkətliliyinin başa düşülməsi, yaxud bəzi şeylərin müqəddəs sayılmasında müxtəlif baxışların olması mümkündür ki, dialoqdan istifadə etməklə onların barəsində araşdırmalar aparıla bilər.

Bütün bu nəzəriyyələrə əsasən Aşuranı şiələr tərəfindən sünnilərin əleyhinə yürüdülən bir müqavimət kimi qələmə vermək səhvdir. Xüsusən bunu qeyd etmək lazımdır ki, Yəzid sünnilərin islami dəyərlərini təmsil edəcək bir nümayəndə də deyildir ki, onu rədd etmək bu dəyərlərin ziddinə çıxmaq hesab edilsin.

Deməli, Aşuranı bu əsas üzərində canlandırmaq da düzgün deyil. Çünki Aşura məsələsi islami bir məsələdir və xüsusi bir məzhəbin deyil, bütün müsəlmanların diqqət mərkəzində olmuşdur.

Bu zəmində ixtilafların cilovlanmasında Quranın meyil etdiyi əqli metoda işarə etmək istərdim. Aşura hadisəsinin əks reaksiya verəcək, hiddət və acıq yaradacaq bir hərəkata deyil, məntiqli bir hərəkata çevrilməsi üçün Qurana görə insanlar müştərək bir nöqtədə birləşməli, ixtilaflı nöqtədə dialoqa getməlidirlər. Çünki insan aram və sakit şəkildə düşündükdə mövcud hadisələri və dünyanın siyasi şəraitini yaxşı dərk edə bilər. Lakin hiddət və acıq insanı dastan yaratmağa sövq edər və o, öz iradəsinin və mövqeyinin cilovunu itirmiş olar.

Bizim dastana, hiddət və fəryada ehtiyacımız var, amma hər şeydən əvvəl gərək yaxşı bilək ki, nə üçün və hansı səbəbə görə dastan yaradır və dad-fəryad çəkirik.

Ağıllı insan söz söyləməzdən əvvəl onun nəticəsini düşünər. Bir hərəkət etməzdən əvvəl onun aqibətini fikirləşər, söyüş və lənətlə xilaf bir işə əl atmaz.

Belə bir sual ortaya çıxır ki, əgər şiə qəzəblənib əhli-sünnənin müqəddəs saydığını təhqir edərsə, sünni şiə olarmı? Yaxud sünni öz qəzəbini partladıb şiənin müqəddəs saydığını söysə, bu iş onun fikir və əqidəsinə dəvət hesab oluna bilərmi?

Allah-Taala müxtəlif qruplardan olan insanların müqəddəslərinə yanaşma tərzini bizim üçün belə tərif edir: **«Allahdan başqasına ibadət edənləri söyməyin. Yoxsa onlar da bilmədən Allahı düşməncəsinə söyərlər. Beləcə, hər bir ümmətə öz əməllərini gözəl göstərdik. ...»[3]**

Əgər sən başqalarının müqəddəslərini söyərsənsə, o da əks təsir göstərərək sənin müqəddəslərini söyəcəkdir.

Böyük ehtimalla Əli (ə) da məhz həmin ayədən ilham almışdır. O, öz əshablarından bəzilərinin onlarla döyüşməyə gələn şamlıları söydüyünü gördüyü zaman[4] onları tənqid edib buyurdu: **«Mən sizin söyüşcül olmağınızdan xoşlanmıram. Onların etdiklərini vəsf etdinizsə və hallarını xatırladınızsa, ən doğru olaraq və üzr baxımından ən keçərli olaraq deyəcəyiniz söz bu olmalıdır; onları söyməkdənsə belə deyin: «Allahım, onların da canını, bizim də canımızı qoru. Bizimlə onların arasını düzəlt. Onları sapqınlıqdan xilas et ki, haqqı bilməyən onu tanısın, sapqınlıqda inad edən şəxs ondan vaz keçsin, ayrılsın»[5].**

Biz gərək islami vəhdət yolunda hərəkət edək. Lakin bu o demək deyildir ki, öz əqidələrimizdən əl çəkməliyik. Bu o deməkdir ki, bütün müsəlmanlar özlərinin müştərək məsələlərində cəm olub bir-biriləri

---

2 «Bəqərə»; 141

3 «Ənam», 108

4 Bu cür məsələlərin döyüşdə adi qəbul olunmasına və döyüşə cəsarət ab-havasının hakim olmasına baxmayaraq, Əli (ə) üçün döyüş bir zövq deyildi. Əksinə, onun məqsədi sapqınları düzəltmək idi. Ona görə də buyurdu: «And olsun Allaha ki, döyüşü bir gün belə gecikdirməyim, yalnız onlardan bir qrupun mənə qoşularaq hidayət olması, gözlərinin mənim işığımla işıqlanıb həqiqəti görmələri üçündür. Bu onları sapqın bir halda olduqları vəziyyətdə öldürməkdən məncə daha yaxşı, daha sevimlidir. İstəyirlərsə, günahlarına dönsünlər». («Nəhcül-Bəlağə»; 55-ci xütbə)

5 «Nəhcül-Bəlağə»; 206-cı xütbə

ilə həmrəylik etməli, ixtilaflı məsələləri isə elmi və məntiqi yolla araşdırmalıdırlar. Bu, xüsusən İslamın müxtəlif məzhəb davamçılarının yanaşı yaşadığı və təmas xətti hesab edilən məntəqələrində həyata keçməlidir. Belə olduğu halda bəzilərinin islami münasibətlərdən – həmçinin Aşura hadisəsindən – məzhəbi təəssübkeşlik yaratmaq üçün istifadə etdikləri ortaya çıxacaqdır. Bu səbəbdən fiqhi nöqteyi-nəzərdən hər hansı bir fərdin məzhəbi həssasiyyətləri qıcıqlandırmaq məqsədi ilə şüar verməsini və bu cəhətdən hər hansı bir söz söyləməsini haram edirəm.

Gərək həmişə xoş söhbətlər, gözəl və qərəzsiz mübahisələr edilməsinə diqqət yetirilsin. Çünki bizim istəyimiz hamımızın bütünlüklə İslamı qüdrətləndirməyə çalışmağımızdır. Xüsusən də İslam ümmətinin qərar tutduğu və hər bir məzhəb və cərəyanı ilə İslam və müsəlmanlar üçün ən xətərli mərhələ hesab edilən belə bir çətin şəraitdə buna daha çox diqqət edilməlidir.

## AŞURANIN İSLAMLAŞDIRILMASI

Bu başlığı qeyd etməklə Aşura hadisəsinin öz islami xüsusiyyətini itirdiyini təlqin etmək istəmirik. Əksinə istəyirik bildirək ki, Aşura hadisəsi ümumislami bir hadisədir. Onu xüsusi bir məzhəbə aid etmək olmaz.

Kərbəla qiyamının ortaya çıxması İslamın sərlövhəsidir və bu məsələ əvvəldən şəhadətədək İmam Hüseyn (ə)-ın bəyanatlarında və nitqlərində aydın şəkildə təcəssüm etmişdir.

Şəhidlər ağası İmam Hüseyn hərəkatının sərlövhəsi Peyğəmbər (s) ümmətinin islahıdır.

İmam Hüseyn (ə) buyurur: **«Mən yalnız babamın ümməti arasında islahat aparmaq üçün qiyam etmişəm. Əmrun bil-məruf və nəhyun ənil-münkər etmək istəyirəm».** Çünki Xudavəndi-aləm Quran-kərimdə buyurur: **«(Ey müsəlmanlar!) İçərinizdə (insanları) xeyrə çağıran, əmrun bil-məruf (vacib işləri görməyi əmr edən) və nəhyun ənil-münkər (haramları qadağan edən) edən bir camaat olsun! ...»**[6] Əmrun bil-məruf etməyin növlərindən biri də odur ki, zalım bir kəsə yaxşılığı yerinə yetirmək üçün əmr edilsin. Nəhyun ənil-münkərin isə növlərindən biri budur ki, zalım bir şəxsə haram işləri yerinə yetirmək yasaq edilsin. Hətta bu onun qarşısında qiyam etmək vasitəsilə baş vermiş olsa da. Çünki əmrun bil-məruf və nəhyun ənil-münkər bəzən söhbətlər şəklində, bəzən mövqe nümayiş etdirmək, bəzən isə güc tətbiq etməklə yerinə yetirilməlidir. Lakin onun növünü şərtlər və işin nəticələri təyin edir.

İslamın müsəlman hakim və xəlifə üçün nəzərdə tutduğu xüsusiyyətlərə əsasən İmam Hüseyn (ə) Yəzidə beyət etməyi qəbul etmədi və buyurdu: **«Kim zalım, Allahın haram buyurduğunu halal edən, Onun əhdini sındıran, Peyğəmbərin Sünnəsinə müxalifət edən, Allahın bəndələrilə günah və düşmənçiliklə davranan bir hökmdarı görüb işi və sözü ilə bu işdə bir dəyişiklik yaratmazsa, həmin şəxsi o zalım hökmdarın daxil olduğu yerə daxil etmək Allahın üzərində bir haqq olar. ...»** Bu, hadisənin nəzəri şəkildə izahı idi.

Lakin hadisənin əməli yönünün izahına gəlincə, İmam Hüseyn (ə) buyurdu: **«Bilin və agah olun! Bu qövm həmişə Şeytana itaət etdi, Allaha itaəti tərk etdi, açıq şəkildə fəsad törətdi, ilahi hədlərin tətbiq olunmasında səhlənkarlıq etdi, hərb olmadan əldə olunan qənimətləri mənimsədi, Allahın haramını halal, halalını haram etdi. Mən bunu dəyişdirməyə daha çox haqqı olan bir şəxsəm»[7].**

O Həzrət bəzi başqa xütbələrində izzət məsələsinə və onun mömin insanın şəxsiyyətindəki yüksək mənasına işarə edərək buyurur: **«And olsun Allaha yox! Əlimi zəlil bir şəkildə sizə verməərəm və sizin nökərçiliyinizi qəbul etməyi iqrar etmərəm»[8].** Və yenə buyurdu: **«Bilin və agah olun! Bu zinazadə oğlu zinazadə (Übeydullah ibn Ziyad) məni iki şeydən birini seçməyə məcbur buraxmışdır; qılınc və zillət. Zillət bizdən uzaqdır! Nə Allah, nə Onun Rəsulu, nə möminlər ... bunu bizdən qəbul etməzlər»[9].**

Bunlar o Həzrətin şüarlarından bir hissə idi.

Biz bu şüarları araşdırdığımız zaman bunların yalnız İmam Hüseynin (ə) dövrünü əhatə etmədiyini görürük. Elə bu səbəbdən əvəzedilməz Aşura hadisəsini tarixə qovuşmuş və yararsız bir hadisə kimi dəyərləndirə bilmərik. Bu şüarlar heç bir məzhəbi yönə də malik deyildir. Əksinə, bütövlükdə həyat tərzini əhatə edən və bütün məkanlarda islami olan şüarlardır.

**Hakimiyyət və onun əməliyyatında mövcud olan siyasi fəsadın şahidi olmayan adam varmı?**

---

[6] «Ali-İmran»; 104
[7] «Tarixi-Təbəri»; c. 3, s. 307
[8] «Biharul-Ənvar»; c. 54, s. 7, bab 37
[9] Həmin mənbə; s. 83, bab 37, 10-cu rəvayət

**İslam ümmətinin əsas və mühüm məsələlərini öhdəsinə götürmək istəyən dünyəvi, regional və yerli hegemonluğun fəsadını görməyən bir şəxs vardırmı?**

**Əxlaqını satanlar vasitəsilə fərdin və cəmiyyətin fəsada sürüklənməsi tərzini və yolunu görməyən bir şəxs vardırmı?**

**Dilində kəlmeyi-şəhadət deyən müsəlmanın Allaha ibadəti tərk etdiyini, sədaqət, etibar, iffət, vəfadarlıq və İslam əxlaqının digər üsullarını əldən verdiyini qəbul etməyən bir şəxs vardırmı?**

**Həyatda sapqınlıq simvollarının, qırılmış əlaqələrin, fərdlər, ailələr, qruplar və məzhəblər arasında mövcud olan fitnələrin olduğunu qəbul etməyən bir şəxs vardırmı?**

**İzzəti, fərdi və ictimai dəyərlərdən biri kimi qəbul etməyən bir şəxs vardırmı?**

İmam Hüseyn (ə) inqilabı hərbi baxımdan müvəffəqiyyətli olmasa da, İslam cəmiyyətinə təkan verməklə İslam həyatını qoruyub saxlayan, onda ədaləti möhkəmləndirən əsas bir xəttin bünövrəsini qoydu. Lakin o zamanın İslam cəmiyyəti Yəzidin hakimiyyətinin təsiri altına elə düşmüşdü ki, süstlüyə və düşkünlüyə düçar olmuşdular. Yəzid camaatı elə bir hərəkətə vadar edirdi ki, onlar İmam Hüseyni (ə) sevdikləri halda, onunla döyüşə qalxdılar. Göründüyü kimi, İslam cəmiyyəti elə bir vəziyyətdə idi ki, insanlar zülmü qəbul etməyə hazır idilər və azğın cəmiyyət insanları haqtələb dəvətlərin müqabilində dayanmağa sövq edirdi. Küfrü İslam adına insanlara təqdim etmək cəmiyyətin əsas hərəkət metodu idi.

Bu səbəbdən İmam Hüseyn (ə) bir xətt və üsulun təcəssümüdür. Eləcə də izzət, kəramət, haqq yolu qoruyub saxlamaq – hansı ki Allah onu bir məsuliyyət olaraq bizim öhdəmizə qoymuşdur – və hər bir zamanda zülmlə və onun bütün təzahürləri və formaları ilə mübarizə aparmaq kimi islami dəyərlərin canlı nümunəsidir.

İmam Hüseyn (ə) israrla deyir ki, Peyğəmbər (s) ümmətinin islahı, İslam ümmətinin bütün fərdlərinin ümdə vəzifəsidir və hər kəs bu məsələyə bütün sahələrdə öz plan və imkanlarına uyğun olaraq yanaşmalıdır.

İmam (ə) bütün bunları babası Peyğəmbərdən ilham alaraq müsəlmanları əmrun bil-məruf və nəhyun ənil-münkər əmrini tərk etməkdən çəkindirərək onları qorxudurdu ki, əgər bu vəzifəni tərk etsələr, böyük müsibətlərə düçar olub bəlalarla üzləşəcəklər.

Buna görə də buyurdu: **«Əmrun bil-məruf və nəhyun ənil-münkər etməlisiniz. Yoxsa Allah aranızdakı şər insanları xeyirli insanlarınız üzərində hakim edər. Ən xeyirliləriniz dua edər, lakin onun duası qəbul olunmaz»[10].**

## DİNLƏRİN ƏSAS QAYƏSİ SİYASƏTDİR

Şayəd bəziləri desin ki, ədalət, zülm, dövlət başçısının islah olunması və rejimin dəyişdirilməsi kimi hadisələr siyasətə aiddir və dinlə heç bir əlaqəsi yoxdur. Din öz paklığına və müqəddəsliyinə görə bütün bunlardan uzaq olmalıdır. Halbuki Quran-kərimdə risalətin əsas qayəsinin siyasət olduğunun təkid edildiyini görürük. Allah-Taala buyurur: **«Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik. Biz onlarla birlikdə kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar ədalətlə rəftar etsinlər»[11].**

Yəni dinin hərəkəti – hansı din olursa-olsun – insanlar arasında ədaləti bərpa etməkdir. Allah-Taala dini yalnız bizim axirətimizi sahmana salmaq üçün nazil etməmişdir. Din eyni zamanda bizim dünyəvi həyatımızı tənzim etmək üçün nazil edilmişdir.

İlahi iradəyə əsasən dünya bizim fəaliyyət meydanımızdır. Allah iradə etmişdir ki, insan yer üzündə Onun canişini olsun və insanlar arasında ədalətlə hökm etsin.

Din insanın fərdi, ictimai, siyasi, hərbi və iqtisadi həyatında olan həmin ədalət axtarışıdır. Bu cəhətdən Allah-Taala Quranda ədaləti əmr etdiyi kimi başqa heç bir şeyi əmr etməmişdir. Buyurmuşdur: **«... Söz söylədiyiniz zaman qohumunuz olsa belə, ədalətli olun. ...»[12]**

Başqa bir ayədə buyurur: **«Ey iman gətirənlər! Sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! ...».[13]**

**«... Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu təqvaya daha yaxındır. ...».**

---

[10] «Biharul-Ənvar»; c. 90, s. 378, bab 24, 21-ci rəvayət

[11] «Hədid»; 25

[12] «Ənam»; 152

[13] «Nisa»; 135

İslam, hətta kafirlərlə ədalətlə davranılmasını istəyir. Allah-Taala buyurur: «**Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlara ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!**

**Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsil zalımlardır!»**[14]

## AŞURADA ŞƏFQƏT VƏ MƏHƏBBƏT AMİLİ

Çoxları soruşur ki, Aşuranın canlandırılmasında şəfqət və məhəbbət yönünə israr etməyin izahı nədir?

Cavabında demək lazımdır ki, şəfqət və məhəbbətin bir neçə səviyyədə olması mümkündür:

**1.** Fikri əhatə məsələnin qəm gətirən ünsürlərinə elə təkan verir ki, insan özündən ixtiyarsız olaraq həyəcanlı surətdə göz yaşı axıdır.

**2.** Həzin nəğmələrlə dolu olan ağlamalı oxşamalar özünün bütün avazlarında və bəndlərində təhrikedici ünsürlərə yer verir.

**3.** Daxilin fəryadından xəbər verən kəskin və şiddətli əməllər müsibətin təsiri altında və insan vasitəsilə törədilən ağrılı hadisələrə reaksiyada biruzə verilir. Məsələn, ucadan ağlamaq, sinə, yaxud zəncir, yaxud başa qılınc vurmaq, yaxud adətən insanlar arasında yayılan buna bənzər digər işlər.

Bütün bunlar bəzilərinin, Aşura hadisəsinin yalnız fikri və mədəni yönünə əsaslanmağı, ağıl və düşüncəyə dayanmaqla Aşura dəyərlərindən ilham almağı və yolu Aşuranın canlandırılmasının ənənəvi metodlarının üzünə bağlamağı istəmələrinə səbəb olmuşdur. Çünki ənənəvi metodlar məzhəbə bağlı insanların zehniyyətinə və onların münasibətinin canlanması şəklinə mənfi təsir göstərir. Aşura hadisəsinin bu cür canlandırılmasının məzhəbi həssasiyyətlər baxımından fitnəyə səbəb olması mümkündür.

Bəzi mühüm nöqtələri əhatə edən bu ideyanı çatdırmaq üçün bir neçə məqam düşündürücüdür:

## BİRİNCİ: MƏHƏBBƏT VƏ ŞƏFQƏTİN QORUNMASININ ZƏRURƏTİ

Aşura hadisəsinin canlandırılmasının mühüm məsələlərindən biri hesab edilən məhəbbət və şəfqət məsələsi qorunub saxlanılmalıdır. Bir neçə dəlilə əsasən:

**1.** Məhəbbət və şəfqət münasibətin zati xüsusiyyətlərindəndir;

Çünki Aşuranın müsibətli və kədərləndirici bir mahiyyəti vardır. Xalqın agahlığı ilə əzadarlığın məhəbbətlə yanaşma yönü arasında ayrılıq salmaq, bir şeyi öz zatı və təbiətindən uzaqlaşdırmaq mənasına gəlir ki, bu da əzadarlığın ən mühüm həyati ünsürünü tərk etməyə səbəb olur.

**2.** Məhəbbət və şəfqət bəşəri hisslərə təsir buraxdığı və müsibətzədələrlə xalq arasında mehr yaratdığı üçün insan həyatında münasibətin davam etməsinə səbəb olur.

Bu eyni ilə hər hansı bir insanla onu sevən arasında mövcud olan əlaqəyə bənzəyir. Bu iş insanın daxili yönündə müsbət və mühüm nəticələrin yaranmasına səbəb olur, onun hisslərini hadisənin inqilabi yönünə tərəf çəkir və müasir insanın inqilabi və islami xarakterində də buna bənzər iz qoyur.

**3.** Məhəbbət və şəfqətlə yanaşma tərzi agahlığın inkişaf növlərindən biridir. Bu, Aşura hadisəsini insan daxilinə həkk edən bir agahlıqdır. Sanki Aşura hadisəsi bu gün qarşılaşdığımız hadisələrdən biridir.

Bu məsələni insanın dini anlayışlarla olan əlaqəsinin ənənəvi metodunda mülahizə edirik. Agahlıq səbəb olur ki, həqiqətdə məfhumların hərəkətliliyini təmin etmək və başqaları tərəfindən o məfhumların əleyhinə körüklənən (qızışdırılan) təkəbbürlü davranışlarla mübarizə aparmaqla onları müdafiə etmək üçün insan həmişə lazımi hazırlığı qoruyub saxlasın. Sanki bu müxalif hərəkətlər şəxsən onun əleyhinə qaldırılmışdır. Bu iş dini və məzhəbi məsələlərin mübarizə meydanlarında həssas məsələlərdən biri kimi özünü göstərməsinə səbəb olur.

**4.** Aşuranı məhəbbət və şəfqətlə yanaşmadan azad edib, yalnız onun məzmunu ilə kifayətlənmək, Aşura hadisəsinin də haqq və batil uğrunda vuruşub zamanın səhifələrində itib-batan digər tarixi hadisələr kimi insanların əqidələrində quru və cansız bir hadisəyə çevrilməsinə səbəb olacaqdır.

Çünki müasir insan elə çətin məsələlər və problemlərlə üzbəüzdür ki, onun fikir və düşüncəsi hər zaman təzyiqə məruz qalır və bununla da insan tarixi hadisələrlə məşğul olmağa fürsət tapmır.

Bu iş nadir hallar istisna olmaqla tarixi hadisənin unudulmasına və diqqətsiz bir şeyə çevrilməsinə səbəb olur. Ola bilsin ki, bəzi tarixi hadisələr tələsik halda qeyd edilsin. Lakin bu, insana göstərilən təzyiqlərin təsiri altında çox tez əriyib yoxa çıxacaqdır.

---

[14] «Mumtəhinə»; 7-9

Bütün bunlar göstərir ki, əgər Aşura hadisəsinin, ondan alınan dərs və ibrətlərin davam etməsini istəyiriksə, gərək o məhəbbət və şəfqətlə qarışmış olsun. Əgər məhəbbət və şəfqət tərəfi Aşuradan silinmiş olsa, kitablarda qalan, yaxud quru və boş canlanması ilə kifayətlənən sırf tarixi bir toqquşmaya çevrilər.

## İKİNCİ: ŞƏFQƏT VƏ MƏHƏBBƏT İLƏ YANAŞI DÜŞÜNCƏ

Aşurada məhəbbət və şəfqətin əhəmiyyəti üzərində edilən bütün bu təkidlərlə yanaşı xatırlatmaq lazımdır ki, fikri yönün müqabilində məhəbbət və şəfqət ünsürü ilə kifayətlənməyin bir sıra ziyanları da vardır. Bu səbəbdən fikri yönlə məhəbbət və şəfqət yönü arasında bərabərlik yaratmaq lazımdır. Belə ki, bu iki tərəfdən birini digərindən üstün tutmaq olmaz. Bunun ən mühüm dəlilləri aşağıdakılardan ibarətdir:

**a)** Fikri yön Aşura hadisəsinin böyük hədəfilə bağlıdır. O hədəf müxtəlif ünsürlər vasitəsilə insanı və həyatı dəyişdirməkdir ki, Hüseynin inqilabı bütün bunları təmin edir.

Hüseyn inqilabının baxışı bu gün və gələcək üçündür. İmam Hüseyn (ə) zalım hakimiyyət əleyhinə yalnız bizim göz yaşı töküb ağlamağımız üçün qiyam etməmişdir. Əksinə, İmam cəmiyyəti islah etmək və dəyişmək üçün qiyam etmişdir. Əlbəttə, məhəbbət və şəfqətlə yanaşma Hüseyn (ə) inqilabının nəticələrindən biridir ki, imamlar (ə) bu yolla Aşura hadisəsini müsəlmanların əqidələrində canlı saxlamışlar. Məqsədləri də bu idi ki, Aşura hadisəsi özünə insanların qəlbində yer tutan bir məsələyə çevrilsin. Məhəbbət və şəfqətin inqilabın hədəfi olması ilə insanların qəlbində inqilabı yaşatma vasitələrindən biri olması arasında böyük bir fərq vardır.

**b)** İmam Hüseyn (ə) hadisəsi şəxsi və fərdi bir hadisə deyildi ki, fərdin istiqaməti ətrafında formalaşmış olsun. Əksinə, bu hadisə mühüm islami və inqilabi hadisələrdəndir.

Bu səbəbdən – fikir və düşüncəni nəzərdə tutmadan – məhəbbət və şəfqət amili üzərində israrla dayanmaq Aşura hərəkatını islami xüsusiyyətlərdən uzaqlaşdırıb onu fərdi bir məsələyə çevirir. Çünki insanın hüznverici və ağladıcı müsibətlərə qərq olması səbəb olur ki, məhəbbət və şəfqət buludu insanın daxili boşluğunu doldursun, anlayış və həqiqətlərə nisbətdə aydın baxışın qarşısını alsın. Hətta islami rəhbərlə olan əlaqənin fərdi bir işə çevrilməsi, yaxud bir sıra quru və boş tarixi ənənələr içində qərq olması mümkündür.

Bu tərzdə ağlamaq – və digər məhəbbət və şəfqətlə yanaşma metodları – mümkündür ki, insanı hadisənin məzmununa bağlamaqdan daha çox zahiri bir əmələ çevrilsin. Bununla da əzadarlıq, tarixi Aşura hadisəsi ilə ciddi bir münasibət yaratmaqdansa, insanın gündəlik həyatda qarşılaşdığı şəxsi dərdlərindən azad olması üçün bir vasitəyə çevrilir.

**c)** Münasibətlərə ənənəvi baxışın əzadarlığı istər hadisənin inqilabi yönündən, istərsə də siyasi yönündən heç bir fikri məna daşımayan sadə bir dini mərasimə çevirməsi mümkündür.

Hətta hal-hazırda əzadarlığı məhəbbətlə yanaşma metodu ilə keçirən zalım və azğın «şiə» siyasətçilərini də mülahizə edə bilərik. Çünki belə əzadarlıqlar şiəliyin uzunömürlü ənənələrindəndir. Lakin xütbə və moizə söyləyənlərə icazə verilmir ki, məhəbbətlə yanaşma metodundan başqa daha yuxarı metodlardan istifadə etsinlər və eyni zamanda siyasi məsələlərə toxunsunlar.

**ç)** Aşura hadisəsini araşdırarkən elmi və fikri metoddan istifadə etməmək İmam Hüseyn (ə) inqilabı anlayışının zərər görməsi ilə nəticələnə bilər.

Aşura anlayışlarının birbaşa Aşura inqilabının mahiyyətindən qalxmış olması və ya qeyri-müstəqim surətdə tarix kitablarında nəql edilən Kərbəla qəhrəmanlarının mövqelərindən əldə edilməsi mümkündür. Hətta mərsiyəxanların oxuduqları mərsiyələrin İslamın əsil anlayışları ilə ziddiyyət təşkil etməsi, yaxud tarixi səhnənin təsvir olunmasında məhəbbət və təfəkkür arasında bərabərlik yaradan xətdən çıxması və yaxud da missiyaçı hisslər və düşüncələrdən uzaq olmaqla əzadarlığı dar ailə tərəfgirliyi dairəsində məhdudlaşdırması mümkündür. Bütün bunların ümumi insanların zehinlərinə mənfi təsir buraxması mümkündür. Çünki bu anlayışlar gözyaşı və ağlamaq vasitəsilə insanın şüuruna yol tapır və insanın daxilində fikri bir məzmun surətində möhkəmlənib formalaşır. Bu nöqtəyə sonrakı fəsildə daha geniş və müstəqil şəkildə toxunacayıq, inşallah!

**d)** Aşura hadisəsindən fikri metodu uzaqlaşdırmaq bu hadisəyə qarşı insanlarda səhv düşüncənin formalaşmasına səbəb ola bilər.

Ola bilsin ki, bəziləri İmam Hüseynin batillə və azğın rəhbərlə mübarizədən ibarət olan hərəkət tərzini ümumi-islami bir metod kimi deyil, Hüseynə məxsus olan üslub kimi qələmə versinlər və İmam Hüseynin öz şəxsi xüsusiyyətlərinə görə qiyam etdiyini düşünsünlər.

Çünki müsibətin fərdi və xüsusi yönündə qərq olmaq İmam Hüseynlə (ə) olan əlaqəni fərdi əlaqəyə çevirir. Bu isə insanı İmam Hüseyn (ə)-ın missiyası ilə əlaqələndirmək əvəzinə Həzrətin şəxsiyyətinə bağlanmasına səbəb olur. Onların baxışına görə, Aşura artıq gələcək bütün müsəlman nəsillərin ondan ilham ala biləcəyi bir ülgü deyil.

**e)** Əzadarlığın fikri yönünə təkid etmək bizə bu imkanı verir ki, İmam Hüseynin həyat tərzinin məzmun və şəkli ilə əlaqədar fikri, inqilabi və fiqhi xətləri müəyyənləşdirək və ondan düzgün bir şəkildə bəhrələnək.

Çünki Aşura böyük bir fikri və fiqhi məzmuna malikdir. Elə isə biz elmi və dəqiq təhlillərlə onun incəliklərinə vaqif olmalıyıq. Bu tərtiblə Aşura uzaq və yaxın gələcəkdə islami məsələlərin dəqiq surətdə proqramlaşdırılması üçün bir fürsətə çevrilir və İslamın bizim fikrimizin, məhəbbətimizin və həyatımızın əsasını təşkil etməsinə səbəb olur.

**ə)** Aşuranın fikri yönünə diqqətsizlik, İslama dəvət üçün bir fürsət olan Hüseyni minbərin itirilməsinə səbəb olur.

Hüseyni minbər ənənəvi və təbii formada xalq kütlələrini özünə cəlb edir. Bu iş İslamın təbliğatçılarına belə bir imkan verirdi ki, xalqın ağlına və qəlbinə nüfuz etsinlər və xalqın İmam Hüseynə (ə) tərəf üz tutmasından istifadə edərək onları düşüncəyə, hərəkata, İslam inqilabına və İmam Hüseynin (ə) canlı təcəssümü olduğu bir İslama sövq etsinlər. Deməli, belə bir əzadarlıq İslama və xalqa məxsus olan, müxtəlif yönləri və metodları olan və İslama tərəf dəvət üçün vasitə olan bir məktəbə çevrilir.

**f)** Məhəbbət və şəfqəti ağıldan ayrılıqda müzakirə etmək, İmam Hüseyn (ə) müsibəti kimi digər bir faciəyə çevrilməsinə gətirib çıxara bilər.

Çünki Kərbəla faciəsi o səbəbə görə meydana gəlməmişdi ki, müsəlmanların məhəbbəti İmam Hüseynə (ə) qarşı itmişdi. Əksinə, müsəlmanların qəlbləri İmam Hüseyn (ə) məhəbbəti ilə dolu idi. Lakin onların eşqi səthi idi və iradə, dərketmə və çətinliklərə sinə gərməkdə kök və əsas yox idi. Bu üzdən iş, öz mənfəətlərini qurban etməyə və mallarından keçməyə gəldikdə bütün sevgi və məhəbbətlər kənara atıldı. Onun yerini məsləhət və tədbir aldı.

Fərəzdəq İmam Hüseynlə (ə) döyüşə çıxan kufəliləri təsvir edərək dedi:

**«Xalqın qəlbi səninlə, lakin qılıncları sənin əleyhinədir»[15].**

Bizim İmam Hüseyni, çətinliklərlə və təkəbbürçülüklərlə üzləşdikdə laxlayıb çökəcək qədər səthi olan sevgi ilə yox, agahlıq, ağıl və çətinliklərə dözməyə hazırlıqla sevməyə ehtiyacımız vardır. Elə isə gərək Aşura inqilabının nəşət etdiyi İslamın bütün uca məzmunlarından xəbərdar olaq.

Əzadarlığın fikri yönünün əhəmiyyəti barəsində qeyd etdiyimiz və əvvəldə də əzadarlıqda məhəbbət və şəfqət ünsürünün güclü şəkildə qorunmasına işarə etdiyimiz nöqtələrə diqqət çəkməklə təkid etməliyik ki, məhəbbət və şəfqət məsələsi mühüm, insani yönlərə, islami ruh və mahiyyətə malik olan, çox təsir qoyan və bol nəticələr verən bir məsələdir ki, düşüncəyə hərarət və böyüklük bəxş edir, onu quru və boş fikri vəziyyətdən çıxarıb daxili imana çevirir və insanın özünün əsas yeri və məsələləri ilə daha çox əlaqə yaratmasına səbəb olur.

Bütün bunlar səbəb olur ki, fikri vəziyyət, prinsiplər, əsaslar və mövqe tutmaq kimi qəliblərdə insanın agahlığına yaxınlaşıb onun əqidəsinə yol tapır. Bununla da düşüncə, güc, əməldə azadlıq, ruhda möhkəmlik və həqiqətdə davamlılıq əldə edir.

Həmçinin təkid edirik ki, məhəbbətlə düşüncənin bir-birinə bağlılığı yeganə şeydir ki, missiyanın dərin məzmununu insanın əməl və düşüncəsində həqiqətə çevirməyə səbəb olur. Fikir və düşüncənin köməkliyi vasitəsilə düşüncə imana, ağlın qəlbə xitabı vasitəsilə isə bu iman məhəbbət və düşmənçiliyə çevrilir. Bu məsələ müsəlmanın Allahın övliyalarına məhəbbət bəsləməsi və Allahın düşmənlərinə qəzəblənməsinə işarə edən hədislərdən götürülmüşdür. Çünki məhəbbət və qəzəb müsəlmanın öz imanına qarşı vəfalı və ciddi olmasından xəbər verir.

Deməli, məqsəd budur ki, Aşura və vasitələrinin canlandırılmasında hədəf vasitə ilə birləşsin və həqiqətdə məzmun təcəssüm etsin.

Yenidən təkrar edirik: öz ağlımızı tərbiyə etdiyimiz kimi qəlbimizi də tərbiyə etməliyik. Başqa sözlə desək, öz qəlbimizi məhəbbətlə yanaşma mədəniyyəti ilə düzgün yetişdirməliyik. Çünki əgər qəlb doğru yolda məhəbbətlə yanaşa bilməzsə, insanın həyatını viran edər. Əgər bizim məhəbbət bəsləmə gücümüz səthi olarsa, öz eşqimizi ləyaqəti olmayan bir kəsin ixtiyarında qərar vermiş olarıq.

[15] «əl-İrşad»; Şeyx Mofid; c. 2, s. 67, «Alul-Beyt» müəssisəsi

Bəlkə də, indi öz məhəbbətimizi ona hədiyyə etdiyimiz bir kəs öz daxilində bizim gələcək həyatımızı məhvə doğru sürükləyəcək olan bir xəbislik gizlədir. Yaxud, əksinə hər cür yersiz düşmənçiliklə mümkündür ki, öz həyatımızı digərlərinin vücudunda mövcud olan paklıqlardan məhrum edək.

Gərək məhəbbət və hissiyyatımızı elə inkişaf etdirək ki, dərrakəli şəkildə hərəkət etsin və səthi olmaq yerinə dərin kökə malik olsun. Bizim məhəbbətlə yanaşma tərzimiz nə dəlicəsinə, nə də uşaqcasına olmamalıdır. Çünki uşaqların məhəbbətləri dərin kökə malik deyildir.

## ÜÇÜNCÜ: ƏZADARLIQ METODLARINI DƏYİŞDİRMƏK

Məhəbbət və şəfqətin Aşuranın davamlılığını təmin etməsi, onun ehtiras və hərarətini zamanın axarında qoruması və Aşuranı insanların əqidə və dərrakələrinin dərinliklərində yerləşdirməsi arzu olunan bir şey olmasına baxmayaraq, yenə də əzadarlığın yeni metodlarının axtarışında olmalıyıq. Çünki insan öz zehniyyət və mədəniyyətinin dəyişdiyinə diqqət etdikdə yeni təsiredici amillərin ardınca getməyə can atır.

Başqa bir ibarə ilə desək, zehniyyət birdillidir. Əgər zehniyyətlər müxtəlif və dəyişkən olarsa, bunun mənası odur ki, təsiredici amillər də müxatəbin zehniyyəti ilə mütənasib olaraq dəyişkən olmalıdır. Bəlkə də təhrikedici metodlardan bəziləri xüsusi bir zaman şəraitinə tabedir və ondan başqa bir zaman üçün istifadə etmək faydalı olmaya bilər. Ola bilsin keçmişdə xüsusi bir metodla təsir yaratmaq olurdu, lakin mümkündür ki, həmin metod təsir etmək üçün daha inkişaf etmiş bir mədəniyyətdə işə yaramasın.

Qəbilə ab-havası və ənənəsindən qaynaqlanan bəzi epik və xalqa məxsus bayağı şeirlərdə kişilərin qeyrətinin qadınlar vasitəsilə təhrik edildiyi aşkar görünür. Əgər biz belə bir məsələni digər bir mədəniyyətə malik olanların yanında qeyd etsək ola bilsin ki, adət və ənənələrin müxtəlifliyi baxımından öz təsir qüvvəsini göstərə bilməsin. Çünki mədəniyyətin növü düşüncə tərzini dəyişdiyi kimi, məhəbbət və şəfqətlə yanaşma tərzini də dəyişəcəkdir. Bütün bunları söyləməklə bu cür mərasimləri rəngsizləşdirmək, adiləşdirmək niyyətində olduğumuz təsəvvür edilməməlidir. Əksinə biz mühüm bir nöqtəyə işarə etmək istəyirik ki, bu şivənin xüsusi zaman, yaxud məkan şəraitində Aşura hadisəsinin canlandırılmasına kömək etməsi mümkün olmuş olardı. Lakin müxtəlif cəmiyyətlər arasında mövcud olan fərqliliklərə görə mümkündür ki, digər cəmiyyətdə Aşura hadisəsinə kömək etmək baxımından təsirsiz ola.

Buna əsasən bir neçə əsas nöqtəyə diqqət etmək zəruridir:

**1.** Gərək Aşura özünün ənənəvi üslubu ilə qorunub saxlansın.

Çünki bu üslubların qüsursuzluğu və sadəliyi Hüseyn (ə) hərəkatının indiki və gələcək zamanda davam etməsini təmin edir. İnsanların bu həyəcanı, bütün zaman və məkanlarda Aşuraya bağlı nəsillər meydana gətirmək üçün bizə nailiyyətlər qazandırır.

Həmin ənənəvi metoddur ki, on dörd əsrdən artıq bir zamanda Aşura hadisəsinə davamlılıq bəxş etmişdir. Bu işə hər cür zərər toxundurmalar Aşura hadisəsinin insanların ümumi əqidələrində həzm olunmasına və məhvinə səbəb olur.

**2.** Qeyd etdiyimizə diqqət çəkməklə belə bir nəticəyə gəlirik ki, əzadarlığın ənənəvi yönünün qorunması ənənəvi metodun süzgəcdən keçirilməsinə ehtiyaclıdır. Çünki yalnız bu yolla ənənəvi metodu, İslamın əsil fikri, əxlaqi və şəri anlayışları ilə uyğunlaşmayan nöqsanlardan uzaq tuta bilərik. Fikri yönlə hissi yön arasında uyğunlaşmanın yaranması zəruridir.

**3.** Gərək əzadarlıqların bütün ənənəvi vasitələri şəri baxımdan araşdırılsın. Çünki əzadarlığın başa qılınc vurmaq kimi bəzi simvolları həm «ünvani-əvvəli»[16], həm də «ünvani-sanəvi» baxımından şərən haramdır. Yaxşı olar ki, bu məsələyə bir neçə yöndən baxaq:

**a)** Bu işlər dini mərasimlərin («şəair») tərkib hissəsi deyildir. Bəziləri **«Və hər kəs Allahın mərasiminə hörmət etsə, bu hörmət şübhəsiz ki, qəlblərin təqvasındandır»**[17] ayəsini bu iş üçün tətbiq

---

[16] «Ünvani-əvvəli» (yəni birinci dərəcəli başlıq) təbii varlığı baxımından mövzunun öz adı üzərində sabit olan bir hökmdür. Məsələn, şərabın haram və suyun mübah (halal) olması. «Ünvani-sanəvi» (yəni ikinci dərəcəli mövzu) isə **«Allah dində üzərinizə heç bir çətinlik qoymadı…» («Həcc»; 78)** və **«Zərər vermək və zərərə zərərlə qarşılıq vermək yoxdur»** hökmü kimi müsəlmanların çətinliyini həll etmək üçün qoyulmuş şəri hökmdür. Bu cür qaydalar bəzən (diqqət edilsin – X.Q.) «hökmi-əvvəli»ni (yəni birinci dərəcəli hökmü) dəyişir. Məsələn, şərab içmək haram olmasına baxmayaraq, çarəsizlikdən, yəni insanın nicat tapması onun içilməsinə bağlı olduğu hallarda, nəinki icazəli, bəlkə vacib olur. Suyun içilməsi də insanın həlakına səbəb olacaqsa, haramdır. İnsanın su ilə dəstəmaz alması vacibdir. Əgər dəstəmaz almaq insan üçün zərərli olarsa, bu halda bu vəzifə onun boynundan düşür. Həmçinin, bir çox işlərin yerinə yetirilməsi insan üçün çətinlik yaratdığı üçün həmin işin yerinə yetirilməsi təklifi onun boynundan düşür. Bir sözlə, «ünvani-sanəvi», hökmü sabit olan bir işin hökmünü dəyişdirən şəri hökm və qaydadır. Hökmi-sanəvi özünə məxsus olan yerlərdə hökmi-əvvəl kimi Allahın hökmüdür. Hər bir yerdə Allahın hökmünə itaət etmək lazımdır.

[17] «Həcc», 32

etməyə çalışırlar. Lakin diqqət etmək lazımdır ki, bir şeyin ilahi mərasimlərin tərkib hissəsi kimi nəzərdə tutulması onun mərasim olmasına dəlalət edən şəri bir bəyanın sadir olmasına bağlıdır.

Buna əsasən Peyğəmbər (s), yaxud İmam (ə) tərəfindən bu simvolların mərasim olması haqqında heç bir şey nəql edilmədiyinə görə, onları mərasimlərin tərkib hissəsi hesab etmək olmaz. Başdan qan çıxarmaq, yaxud buna bənzər işlər haqqında verilən sualın cavabında Ayətullahil-Üzma Xoyi belə buyurdu: **«Onun mərasim olması haqqında nəss (mötəbər şəri sənəd) varid olmamışdır. Buna əsasən onun müstəhəb olmasına hökm verməyin heç bir yolu mövcud deyildir»[18].**

**b)** Qılınc və xəncər vurmaq, sair buna bənzər şeylər bədənə zərər verəcək işlərdəndir. Bəzi müctəhidlər – o cümlədən cənabınız – cana zərər toxundurmağı mütləq olaraq haram bilirlər. İstər ölümlə nəticələnmiş olsun, istərsə də olmasın. Buna görə də bu işlər «ünvani-əvvəli» olaraq haramdır. Çünki cana zərər toxundurma faktlarındandır.

**c)** Cana ölümlə nəticələnməyəcək zərər toxundurmağı haram bilməmək bu cür işlərin yerinə yetirilməsinin şəri baxımdan icazəli olması mənasına gəlməz. Çünki bəzi «ünvani-sanəvi»lər mübah (halal) bir işin, «ünvani-sanəvi»nin haram olması səbəbilə harama çevrilməsinə səbəb olur. Bu səbəbdən görürük ki, bu haqda verilən sualın cavabında Ayətullahil-Üzma Xoyi deyir: **«Əgər cəlbedici bir zərərə, yaxud təhqirə və rüsvayçılığa gətirib çıxarmasına səbəb olarsa, icazəli deyildir. Hər şeyin yaxşısını bilən Allahdır».** Sonra isə cavabının sonunu izah edərək buyurur ki, təhqir və rüsvayçılıq deməkdə məqsədi **«Xalqın nəzərində zillətə və məzhəbin zəifləməsinə gətirib çıxaran bir şeydir»[19].**

Ola bilər ki, xalqın bəzi hissəsi deyə ki: kafir və münafiqlərin bizim ibadi, yaxud qeyri-ibadi vacibatlarımızdan bəzisini məsxərə etməsi mümkündür. Lakin onların məsxərə etmələri o vacibatların yerinə yetirilməsinin haram olmasına səbəb ola bilməz.

Onların cavabında deməliyik ki, İslamın özünün və onun vacib, yaxud haram əməllərinin məsxərə edilməsi ilə «mübah, yaxud müstəhəb bir işi haram edən ünvani-sanəvi» baxımından haram olan mübah, yaxud müstəhəb işlərin məsxərə edilməsi arasında fərq vardır. Buna əsasən mübahlıq və müstəhəblik mükəlləfin öhdəsinə heç bir vəzifə qoymamaq baxımından müştərəkdirlər. Çünki mübah, yaxud müstəhəb olan bir iş üzərində haramlığın tətbiq edilməsi, haram fəsadın olmasına görə mübahlıq və müstəhəbliyin qarşısını alır.

Bu səbəbdən bu cür işlərin şəri hökmü haqqında söhbət edən bir çoxlarının problemi odur ki, hadisəyə fəqihlərin haqqında müxtəlif fiqhi nəzəriyyələrə malik olduqları «ünvani-əvvəli» pəncərəsindən baxırlar. Halbuki, başqa yönlərdən də müzakirə edilməlidir. Yəni bu və ya digərinin məsləhət və fəsad dairəsində İslamın ümumi başlıqlarına aid olan və «ünvani-sanəvi» başlığı altında qərar tutan yönlərdən.

**ç)** Əgər şəri yöndən uzaq halda bu adət və ənənələrin fikri ünsürlərini araşdırsaq, görərik ki, bu işləri yerinə yetirənlər deyirlər ki: biz qılıncı başımıza vurduğumuz zaman İmam Hüseynlə (ə) həmdərd oluruq. Çünki o Həzrətin mübarək başını qılıncla vurmuşlar. Zəncirlə kürəyimizə vurduğumuz zaman Həzrət Zeynəblə (ə) həmdərd oluruq. Çünki onu şallaqla vurmuşlar. Lakin deməliyik ki: bu əməllərdən heç biri həmdərd olmaq hesab edilməz. Çünki İmam Hüseyn (ə) haqq və ədalət uğrunda döyüşdüyü zaman yaralanmış və özü qılıncla öz başına vurmamışdır. Həmdərd olmaq odur ki, insan cihad etdiyi zaman yaralansın. Həzrət Zeynəb (ə) də məhz həmin hadisəyə görə şallaq yemiş və geridə qalmış fikirlə özünə şallaq vurmamışdır.

Bu adətlər hüzn və kədər göstərməyin ən geridə qalmış növlərindəndir. Çünki hüznlü olmağın insani və daha mədəni yolları da vardır. Hüzn yalnız özünə əzab verməkdən ibarət deyildir, əksinə insanlıq yaradacaq bir hərəkətdir.

4. Ənənəvi əzadarlıqlarla yanaşı teatr, kino və bu kimi digər yeni vasitələrdən də istifadə etmək lazımdır. Çünki bu iş Aşuranın dəyərlərinin, köklərinin və ab-havasının müasir insana təqdim olunmasına və Aşura hadisəsinin xüsusi islami yönü ilə yanaşı insani və dünyəvi bir yön də kəsb etməsinə səbəb olur.

Bu təbii bir işdir. Çünki hər bir düşüncə inandırıcı vasitələrlə insani əqidələrin daxilinə yol tapmalıdır. İnsan mövcud əlaqələndirici vasitələrlə inkişaf edir. Yeni vasitələr köhnə ənənəvi vasitələrə nisbətən daha böyük təsiredici qüvvəyə malikdir. Bu işin kino salonlarında, televizor, teatr, əsər yazmaqda, tərtibatçılıqda və sənətkar yetişdirməkdə təşəbbüskar sənət bacarığına ehtiyacı vardır. Lakin inqilabi xəttin və Aşuranın dini mahiyyətinin tamamilə qorunub saxlanılması şərti zəruridir. Bizim nəzərimizə görə, əgər Aşura şəxsiyyətlərinin hörməti, məqam və müqəddəsliyi qorunarsa, teatr və ya kinofilmlərdə

[18] «əl-Məsailuş-Şəriyyə», Seyid Əbülqasım Xoyi, c. 2, s. 337, «Daruz-Zəhra», Beyrut, Livan
[19] Həmin mənbə, s. 339

Aşura şəxsiyyətlərinin rolunun oynanılmasında heç bir şəri maneə yoxdur. Eləcə də Aşuranın məzmun və ruhu ilə təzad təşkil etməyən və yüksək fikirlə əvəz olunmasına səbəb olan sərgi mətnlərindən istifadə etmək icazəlidir. Çünki film və teatr məhsulunun mahiyyəti elədir ki, yalnız tarixi məzmunla kifayətlənmək mümkün olmur. Burada düşüncə yaratmaq üçün başqa vasitələrdən də istifadə etmək lazım gəlir.

Bir halda ki, Aşura hadisəsinin canlandırılmasının yeni üsullarından söhbət açırıq yalnız bu hadisənin əslini qeyd etdik. Lakin onun bütün tərəfləri haqqında ətraflı və lazımi araşdırmalar aparılmalıdır. Tarixi hadisədən hasil olan yüksəklik, düzlük və müsbət izlərin həqiqət tapması üçün yeni üsullar bütün amilləri ehtiva etməlidir. Bu səbəbdən aktyor seçimində dəqiq araşdırmalar aparılmalı və təqdimetmə qaydalarına də ciddi surətdə nəzarət edilməlidir.

Bu mövzuda yazıçı, müəllif və İslam mübəlliğlərindən xahişimiz budur ki, İmam Hüseynin (ə) şəxsiyyətini təhlil etməsinlər. Çünki İmam Hüseyn (ə) İslamın öndərlərindən olmuş və biz şiələrin etiqadına görə onun imaməti nübuvvətin və missiyanın davamıdır. O, hər zaman İslama dəvət yolunda yaşamış və öz danışığı, rəftarı və mövqeyi ilə İslam anlayışını möhkəmləndirmişdir. O, həmişə daxili və xarici çəkişmələri nəzarət altında saxlamışdır. Bu üzdən o Həzrətin hərəkatı və mövqeyindən aydınlaşan imamətinin bütün xüsusiyyətlərini düzgün şəkildə göstərmək zəruridir. Buna əsasən Həzrətin mövqeyinin nəqlində tarixçilərin ziddiyyətli baxışlarını bir tərəfə qoyub İslamın əsil xətti və İmam Hüseynin imaməti və rəhbərliyinin məqamı ilə uyğunluğu olmayan tarixin bütün o nəql etdiklərini biz qətiyyən qəbul etmirik. Allahın köməkliyi ilə gələcək fəsildə bu məsələyə bir daha qayıdacayıq.

## AŞURANIN MƏZMUNU

Bundan əvvəlki bölümlərdə istər ənənəvi və xalqa məxsus adətlərdən olan əzadarlıqlarda, istərsə də əzadarlığın kinofilm, teatr və televiziya filmi kimi digər müxtəlif üsullarda Aşuranın müzakirə olunan məzmununa diqqət etməyin zəruri olduğuna işarə etdik. Bu məsələnin əhəmiyyətli tərəfi odur ki, rövzəxanın, məddahın, film rejissoru və ssenaristinin zehniyyəti Hüseyn (ə) hərəkatının əsil anlayışının dəyişməsinə gətirib çıxara bilər. Xüsusən də, hədəf yalnız gözdən yaş çıxarmaq olduqda mənəvi metodun xeyrinə hadisənin fikri metoduna göz yumulur. Çalışırıq ki, burada xətiblər, məddahlar tərəfindən dərrakəli, yaxud dərrakəsiz şəkildə insanlara çatdırılan anlayışlara işarə edək. Bu anlayışları aşağıdakı formada müqayisə etmək mümkündür:

### 1. İSLAMİ ANLAYIŞLARLA ZİDDİYYƏT

Bu barədə Seyid Heydər Hellinin «Qəsideyi-Hüseyniyyə»sindən bir beytə işarə edək. Şair İmam Mehdiyə xitab edərək deyir:

**«Bəni-Üməyyənin, hətta südəmər körpələrinin belə kökünü kəs».**

Qarşımızda Bəni-Üməyyənin (əməvilərin), hətta südəmər körpələrinin kökünün kəsilməsini istəyən uca və təhrikedici bir fəryad görürük. Aydındır ki, bu iş İslamın insani və adilanə dəyərlərinə aşkar şəkildə müxalifdir.

Halbuki, Quran-kərimdə bu barədə deyilir: **«Heç bir günahkar başqasının günahını daşımaz. ...».**[20] Bu istəyin, hətta İmam Hüseynin (ə) həyat tərzi ilə də heç bir uyğunluğu yoxdur. Rəvayətlərdə deyilir ki, Bəni-Üməyyə ordusu İmam Hüseynin südəmər körpələrinə su verməkdən imtina etdikləri zaman döyüşçülərdən bəziləri dedilər: «Əgər böyüklərin günahları varsa, bu südəmər körpələrin günahı nədir?» Bu onlarda bəzi insani xüsusiyyətlərin mövcud olmasından xəbər verirdi.

Müsəlman xalqın günahsız körpələrə qarşı belə təcavüzkar nidaları eşidib qüssələnməməsi mümkündürmü? Halbuki Aşuranın ümumi ab-havası insan hisslərini, belə bir bəlanı İmam Hüseyn (ə) və onun səhabələri üçün meydana gətirənlərin əleyhinə təhrik edir. Ta ki İslam cəmiyyətində belə hadisələrə müxalifət ab-havası yaransın və İslam cəmiyyəti belə bir faciəni indiki və gələcək zamanda meydana gətirmək istəyən kimsələrin qarşısında dayansın.

Başqa bir nümunə göstərək. Bir şair Əhli-Beytin (ə) dilindən belə deyir:

**«Biz ağayıq, xalq isə nökər. Bütün təzə və ali miraslar bizimdir. Bizim atamız Həzrət Mühəmməd (s) xalqın ağasıdır, onun övladları da ağa və başçı olmağa layiqdirlər».**

---

[20] «Ənam»; 164

Buradan kəlamın zahirinin islami zehniyyətlə ziddiyyət təşkil etdiyi aydın surətdə görünür. İslamda bir insanın digər bir insanı nökər etməsi rədd edilmişdir. Belə bir iş qəbul ediləsi deyildir. Eləcə də islami zehniyyət insanın özünə belə bir nəzərlə diqqət etməsini qəbul etmir.

Peyğəmbərlər və Allahın övliyaları da xalqla olan söhbətlərində heç bir zaman belə bir üsuldan istifadə etməmişlər. Quran-kərim də bu fikri təsdiq edir.

Ümumi şəkildə bütün dini miraslarda və xüsusi olaraq islami miraslarda xalqa qarşı belə bir şöhrətpərəstlik müşahidə olunmur. Tarix boyu peyğəmbərlər və Allah övliyalarının xalqa bəndə və qul kimi baxıb özlərini ağa və başçı bildikləri görünməmişdir. Halbuki əgər onlara din nöqteyi-nəzərindən baxsaq, onların Allahın nəzdində necə yüksək bir məqama malik olduğunu görərik. Onlar Allaha yaxınlıqları vasitəsilə xalqla fasilə saxlamış və zirvəyə yetişmişlər. Çiyinlərində daşıdıqları ilahi missiya xatirinə xalq onlara itaət etməlidir. Lakin bir şeyə də diqqət etmək lazımdır ki, itaət və bəndəlik başqa-başqa şeylərdir. Çünki itaət insani dəyərlərlə deyil, insanın məsuliyyəti ilə əlaqədardır.

Baxmayaraq ki, ədəb hökm edir ki, insan əzəmət sahiblərinə və dahilərə qarşı təvazökar olsun və ona: «Mən sənin nökərinəm», – desin. Lakin İslam tərbiyəsi uca insanın özü üçün belə ifadələrdən istifadə etməsini layiqli bir iş hesab etmir. Amma bu bayağı təsvirə görə Əhli-Beyt özləri haqqında camaatla bu şəkildə danışmışdır. Əlbəttə ki, bu sözlərin Əhli-Beytin xalq qarşısındakı ilahi təvazökarlığındakı uca ruhiyyəsi ilə heç bir uyğunluğu yoxdur.

## HÜSEYN (Ə)-IN QİYAMINI KİÇİLTMƏK

Burada ənənəvi şeirdən göstərəcəyimiz bir nümunədə İmam Hüseyn (ə) qiyamına qohumlar arasında çəkişmə rəngi verilmişdir. Guya ki, Aşura hadisəsi tamamilə Bəni-Haşimlə Bəni-Üməyyə arasında baş verən bir qohumluq çəkişməsidir. Əbül-Əla Müərra öz şeirində bu məsələni belə cilvələndirir:

**«Əbdüş-Şəms döyüş atəşini Bəni-Haşim üçün alovlandırdı ki, körpələr onda qocalırlar. Odur ki, həmin işi İbn Hərb Mustafa (s) üçün, İbn Hind Əli (ə) üçün, Yəzid isə Hüseyn (ə) üçün etdi».**

Bu bayağı şeirlərdən olan bu nümunədir ki, qədimdən bəri bizim əza məclislərimizdə oxunurdu. Bu kimi şeirlərlə bayağı bir zehniyyətin formalaşması mümkündür ki, onun əsasında Haşimi ailəsinin Əməvi ailəsinin əleyhinə olan təəssübkeşliyi dayanır. Sanki bu məsələnin, ümumiyyətlə, heç bir dini və islami yönü yoxdur. Hətta bəziləri mümkündür belə təsəvvür etsinlər ki, din də müsəlman insanın islami əqidələrinə diqqət edən və öz inkişafında İslam şəxsiyyətləri və rəhbərləri ilə əlaqə yaradan və o əlaqədə ailəvi xüsusiyyətlər yolu ilə yox, İslam yolu ilə formalaşan missiyaçı bir iş yox, sırf ailəvi bir məsələdir.

Ola bilsin ki, bu cür hissi təəssüratlar bir növ ailəvi təəssübkeşliyə çevrilsin və xalqın siyasi əqidələri üzərində mənfi təsir qoysun. Çox görmüşəm ki, bəzi padşahların (rəhbərlərin) dini tabeçiliyi araşdırılmadan və onların məzhəbi mənsubiyyəti nəzərə alınmadan sırf haşimi ailəsinə bağlılıqlarına görə onlar bəzi alimlərin məhəbbətinə məzhər olmuşlar. Bu isə öz növbəsində bir çox İslam ölkəsinin siyasi tənəzzülünə səbəb olmuş və istismarçı planların nüfuz tapmasına zəmin yaratmışdır.

Biz belə bir məsələni müzakirə etməklə missiyaçılığı rəhbərlikdən ayrı bir şey kimi qələmə vermək istəmirik. Çünki rəhbərlik missiyanın dərinliyində yerləşir və rəhbərliklə üzvi əlaqə onun missiyası ilə rabitəsi olduğu üçün formalaşmasına səbəb olur. Bu halda əlaqə şəxsi deyil, missiyaya uyğun bir yönü özündə təcəssüm etdirir. Elə isə mülahizə edirik ki, qohumluq mühüm bir rol oynamır. Bu üzdən bizim Əhli-Beytlə (ə) olan əlaqəmiz onların haşimi olduqları üçün deyil, missiyanın davamçıları olmasından irəli gəlir. Eləcə də haşimi olmaq onları müqəddəsləşdirmir. Yəni haşimi olan hər bir fərdi dini dəyərlərdən uzaq olsa belə müqəddəs hesab etmək doğru deyildir.

Nəsr və nəzm qəlibində olan ədəbi mətnlərin müsəlmanların daxili əqidələrinə təsir qoymaq və mərsiyə yazmaq üçün bəzi sənət işarələrinə və təxəyyüllərinə ehtiyaclı olması mümkündür. Lakin diqqət etməliyik ki, bu təxəyyüllər hadisənin məzmunu istiqamətində olsun və mövzudan uzaq, yaxud fərqli yönü olmasın. Həmçinin sənətə mənsub yönü də öz işarələri, ilham və təxəyyülləri ilə gərək düşüncənin həqiqi simasından istifadə etsin və düşüncənin mənasından kənara çıxmasın.

Bu üzdən biz Hüseyn qiyamının yanında ədəbi əsərlərin tərəfdarıyıq ki, İmam Hüseyn hərəkatının mənəvi, fikri və inqilabi hissələrindən qidalansın ki, ta əzadarlıq Aşuraya xidmət etsin və Aşuranın yolun sonu yox, başlanğıcı olduğunu və gələcək nəsillərin əqidəsində özünün hərəkətli (dinamik) amillərini möhkəmləndirməklə yeni anlayışlar məcmuəsini bütün zamanlar və məkanlar üçün hazırlamaq istədiyini göstərsin.

## NÜMUNƏVİ MÜQƏDDƏS İNSANLARIN

**SİMALARINI LƏKƏLƏMƏK**

Tarix kitablarında zikr edilən mövzuları araşdırmaqla diqqət edirik ki, İmam Hüseyn (ə) hərəkatının həqiqi yönünə əsaslanmaq əvəzinə mənəvi yönünə üstünlük verdikləri zaman düzgün və səhv şeylər bir-birinə qarışır və Kərbəlanın zahiri görünüşü haqqında, xüsusən də İmam Hüseyn (ə) və Həzrət Zeynəb (ə) haqqında qüsurlu təsvir nümunələri ortaya çıxır.

Misal üçün nəzm və nəsrlərin bəzilərində nəql edilir ki, İmam Hüseyn (ə) kömək istədi, lakin heç kəs ona kömək etmədi, aman istədi ona aman verən olmadı, bir qurtum su istədi, lakin onun istəyini yerinə yetirən tapılmadı, ta ki hadisə İmam Hüseynin (ə) şərafətli ömrünün son anlarına çatdı.

Həmid ibn Müslim adında bir şəxs İmam Hüseynə (ə) diqqət edib görür ki, Həzrət dodaqlarını tərpədir. O, öz-özünə deyir: «Əgər Hüseyn (ə) bizə nifrin etsə Kəbənin Allahına and olsun ki, hamımız həlak olarıq». O, yaxın gəlib eşidir ki, Həzrət pıçıltı ilə deyir: «Ey camaat! Mənə bir qurtum su verin ki, ciyərim susuzluqdan kabab oldu». Bəzi rəvayətlərdə daha da artıraraq nəql edirlər ki, Həzrət belə demişdir: «Cəddimə and olsun ki, mən susuzam».

Bu təsvir qüdrət və qüvvəti deyil, zəifliyi göstərən təsvirlərdəndir. Bu təsvir qəddar hakimlər – onun mövqeyini viran etmək, səbatını dağıtmaq, onu öz möhkəm iradəsindən və imtiyazlarından uzaqlaşdırmaq, Yəzid hökuməti qarşısında boyun əyməyə məcbur etdirmək üçün hər şeyi onun əleyhinə səfərbər etdilər – qarşısında duran, bütün zəiflik və işgəncələr müqabilində tüğyan edən, heç cür geri çəkilməyi, uzaqlaşmağı, susmağı qəbul etməyən İmam Hüseyn (ə) kimi böyük şəxsiyyətin simasına uyğun deyildir. Çünki bu şəxsi məsələ deyil, əksinə təkəbbürçülüklər və çətinliklər qarşısında dözüm və mətinlik göstərməyə və ağır şəraitlərdə müvazinəti qorumağa ehtiyaclı olan missiya məsələsidir.

Bu məsələni bəzi yerlərdə çox aydın şəkildə görmək mümkündür. Tarix kitabları yazır: «Həzrətin südəmər övladının başı kəsilən zaman İmam Hüseyn (ə) buyurdu: **«Mənim üçün endirilən (nazil olan) hər bir şey asandır. Çünki hər bir şey Allah-Taalanın gözləri qarşısında baş verir».**

Biz inkar etmirik ki, insan – hətta əgər Peyğəmbər və İmam olsa belə – bəşər olduğuna görə bəzi bəşəri hisslərə düçar ola bilər. Lakin İmam Hüseyn (ə), qiyamın nəticələrini dərindən araşdırdıqdan sonra mübarizə etmək qərarına gəlmişdi. O, zalım düşmənlərin vəhşiliklərindən agah idi. O, südəmər körpəsinə qarşı edilən vəhşiliyin ən yüksək mərhələsini görmüşdü. Elə isə necə ola bilərdi ki, bədəni yaralı halda onlardan bir qurtum su istəsin?!

İmam Hüseynin (ə) həqiqi simasını Yəzidin əsgərlərindən biri belə təsvir edir: **«And olsun Allaha! Heç vaxt övladları və ailəsi öldürülən bir müsibətzədənin Hüseyndən səbirli və şücaətli olduğunu görmədim. Əsgərlər döyüş meydanında onu mühasirəyə aldıqları vaxt o, onlara hücum edirdi, onlar isə üstünə canavar hücum edən sürü kimi onun qarşısından qaçırdılar».**

Eləcə də Həzrət Zeynəbin (ə) həqiqi simasına bayağı şeirlərdə nəzər yetirdikdə qüdrət və mətanətlə İbn Ziyadın məclisində durub onun hakimiyyətini laxladan, Kufə əhli qarşısında dayanıb onların alçaqlıq və gücsüzlüyünü onlara xatırladan, Yəzidin məclisində duraraq onun mövqeyini həmləyə məruz qoyan qüdrətli və qəhrəman bir qadının simasını müşahidə edə bilmirik. Əksinə, zəif, süst, sinəsinə dağ basılmış bir halda öz tayfasının ardınca gedən, dost-yavər axtaran, lakin tapmayan, öz qəbiləsinə mənsub bir dildə intiqam nidaları ilə gəzən bir bədəvi qadının siması canlandırılır. O, şeirlərdə dağ görmüş, əsir düşmüş, yalnız öz dərdlərinin və ətrafındakı qadın və uşaqların fikrində olub heç bir vəchlə hadisənin əslini və kökünü düşünməyən bir qadının siması əks etdirilmişdir. Halbuki tarixdə qeyd olunmuşdur ki, Zeynəbi-Kübra (ə) Aşura qiyamının davamında böyük bir rola malik idi və islami dəyərlərə, saf və köklü üsula arxalanaraq Aşura bayrağını qaldırmışdır.

Bəziləri elə güman edirlər ki, müsibət haqqında bu cür söhbət etmək müsibəti, yaxud buna bənzər müsibətləri meydana gətirənlər əleyhinə bir növ psixoloji bir təhrikdir. Bunların etiqadına görə əgər xalq inqilaba hissiyyatla bağlansa, bu xalqın əqidəsində daha güclü qüvvənin meydana gəlməsinə səbəb ola bilər. Lakin biz deyirik: **«Biz Aşura qiyamında məhəbbət və şəfqətin əhəmiyyətini inkar etmirik, lakin məhəbbət və şəfqət hərəkətliliyi ilə hərəkatın yüksək nümunəsi arasında müvazinət yaradılsın və inqilabın amilləri Aşura hadisəsinə xidmət etsin».**

Biz müsibətin həqiqi ünsürlərinə mənəviyyatı (məhəbbətlə yanaşmanı) aşılamağı rədd etmirik. Əksinə, biz müsibəti qüdrət və məğrurluqdan uzaqlaşdıran bəzi məzmunları rədd edirik. Biz forma və məzmunun bir-birilə uyğunsuzluq təşkil etdiyi metodları qəbul etmirik.

Buna əsasən, bizim istəyimiz budur ki, Aşuranın məzmunu – rövzə, şeir və buna bənzər yazıların simasında – İmam Hüseyn (ə) hərəkatının ali hədəflərinə nəzər salmaqla formalaşsın. Qəhrəmanın şəxsiyyətinə, qələbənin növünə, düşmənin mahiyyətinə, mərhələ və zamanənin xüsusiyyətinə kimi baş

vermiş bütün hadisələrə və onlara məxsus şəraitlərə dəqiq və agah şəkildə baxılmalıdır ki, ta onlardan İslam ümmətinin hal-hazırdakı vəziyyəti üçün bəhrələnmək mümkün olsun.

İslam ümməti, cəmiyyəti İslam əsasında dəyişmək üçün Aşura inqilabı və hərəkatından ilham almalıdır. Bununla da əzadarlığı uzun zaman hərəkətli saxlaya bilərik. Keçmişdə bərəkət mənbəyi olduğu kimi, bizim indimiz və gələcəyimiz üçün də xeyirli və bərəkətli ola bilər.

## TARİXİN ELMİ ARAŞDIRMASI

İmam Hüseyn (ə)-ın tarixi elmi və məntiqi olaraq araşdırılmalı və tədqiq edilməlidir. Çünki hazırda kitablarda doğru və saxta məlumatlar hamısı bir-birinə qarışmış vəziyyətdədir. Hətta bəzən onların arasında Aşuranın mahiyyəti ilə həmahəng və mütənasib olmayan, bir-birilə ziddiyyət təşkil edən mövzular da nəzərə çarpır.

Fiqh elmində olduğu kimi rəvayətin sənədinə və mənbəyinə böyük elmi diqqətlə yanaşılması bir o qədər də zəruri deyildir. Lakin rəvayətlərin məzmunu hadisə ilə bağlılığı baxımından dəqiq araşdırılmalıdır ki, bu məzmunları möhkəm qayda əsasında bərqərar edə bilək.

Belə olduğu halda mötəbər mənbələrə müraciət edilməli və kitablarda Kərbəla hadisəsi ilə heç bir əlaqəsi və uyğunluğu olmayan, tarixə əlavə edilən mövzulara qərq olmaqdan çəkinməliyik.

Xətib və mərsiyəxanlar da sırf insanları ağlatmaq, onların hisslərini təhrik etmək üçün sübuta yetirilməmiş, düşünülməmiş, araşdırılmamış mövzuları nəql etməməlidirlər.

İmam Cəfər Sadiq (ə) xalqla söhbət edən bəzi səhabələrini tənqid edərək buyurdu: **«Sən haqqı batillə qarışdırdın. Halbuki haqq az olsa belə batilin çoxluğuna yetərlidir»[21].**

[21] «əl-İrşad», Şeyx Mofid, c. 2, s. 199